**Bu gün xalqımız özünün ən gözəl, şad günlərini yaşayır. 30 illik yurd həsrətinə, status-kvoya, təmas xəttinə birdəfəlik son qoyuldu. Dünyanın ən nüfuzlu təşkilatlarının 30 il ərzində qarşısında aciz qaldıqları Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 44 gün ərzində icra etdi. İndi dövlət başçımız öz ailə üzvləri ilə birlikdə işğaldan azad olunmuş ərazilərə gedir, Azərbaycan Bayrağını qaldırır, həmin ərazilərdəki məscidlərimizi ziyarət edir . Dünya ictimaiyyəti Azərbaycanın gücünün, qüdrətinin şahidi olur.**



# Cıdır düzü... armudu stəkanda çay və Şuşa paxlavası

Möhtərəm Prezidentimizin ailə üzvləri ilə birlikdə növbvəti səfəri Şuşaya oldu. Səfər zamanı Füzuli- Şuşa yolunun və hava limanının təməlləri qoyuldu. Sonra dövlətimizin başçısı Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı. Burada hərbçilərimizlə görüşən Prezident, Ali Baş Komandan 8 noyabrın xalqımızın tarixində əbədi qalacağını dedi: " Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişlər.

Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad ediblər".

Dövlətimizin başçısı Şuşa əməliyyatının aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacağına əminliyini bildirdi. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. Bütün bunlara baxmayaraq, qəhrəman hərbçilərimiz mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirdilər və Şuşa işğalçılardan azad olundu. Uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan Bayrağı qaldırıldı.

Əslən qarabağlı kimi, fəxr edir və qürur hissi keçirirəm ki, bu parlaq Qələbədə "Qarabağ" ordeni və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuş hərbçi oğlumun da zəhməti var.

Möhtərəm Prezidentimizin Şuşaya səfəri zamanı yaddaqalan hadisələrdən biri də Cıdır düzündə ailə üzvləri ilə birlikdə çay içməsi oldu. Bir vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyanın yallı getdiyi Cıdır düzü indi düşmən tapdağından təmizlənib.

Cıdır düzündə armudu stəkanda Azərbaycan paxlavası ilə çay içən möhtərəm Prezidentimiz "Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun", – deyə mesaj verdi.

***Havva MƏMMƏDOVA,***
***tarix elmləri doktoru,***
***professor***

Xalq qəzeti 2021.- 17 yanvar.- S.5.